**Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Azərbaycan Respublikası Milli Məclisinin III, IV və V çağırış deputatı Adil Abış oğlu Əliyev.**

Adil Əliyev 25 sentyabr 1969-cu ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. 1987-ci ildə Bakı idman təmayüllü idman məktəbini, 1992-ci ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Ali Hərbi Dənizçilik Akademiyasını, 2004-cü ildə Bakı Dövlət Universitetinin magistraturasını bitirmişdir.

2012-ci ildə çap olunmuş "Erməni soyqırımı:mif və gerçəklik" adlı kitabın ingiliscədən Azərbaycan və rus dilinə tərcüməsinin ideya müəllifi olmuşdur.

"Asiya Fakt" İnformasiya Agentliyinin nəzdində olan "Sizi Tanıyaq" layi-



## Mehriban, sadə, səmimi, - qayğıkeş insan

həsinin fəaliyyətindən 1 il ötürdü. Bu münasibətlə hörmətli millət vəkilimiz, Kikboksinq Federasiyasının prezidenti Adil Əliyev layihədə iştirak edən istedadlı uşaqlarla görüş keçirdi. Hər bir istedadlı gənclə maraqlandı. Dəyərli məsləhətlər və tövsiyələr verdi. Həmçinin bizi APREL DÖYÜŞLƏRİNİN QAZİLƏRİ İLƏ DƏ TANIŞ ETDİ.

Mən də özüm haqqında kiçik məlumat verdim, şeir kitablarımı Adil müəllimə təqdim etdim və "ANA TORPAĞA DƏYƏR" adlı şeirimi söylədim. İstedadlı Cəmilə Heydərova isə mənim "Allah Türkə Yar Olsun!" adlı şeirimi söylədi.

Bundan əlavə mən 27.04.2019-cu ildə istedadlı gənclərlə birlikdə hörmətli millət vəkilimiz ADİL ƏLİYEVİN dəvəti ilə Kikboksinq üzrə 25-ci Respublika Çempionatının möhtəşəm açılış mərasiminə dəvət almışdım. Mərasimi hörmətli millət vəkilimiz, AKF-nın prezidenti ADİL ƏLİYEV açdı. Qonaqları salamladı və çempionatda iştirak edən idmançılara uğurlar arzu etdi.

Çempionatın açılış mərasimində mən də "ANAM AZƏRBAYCANIM" adlı şeirimi söylədim.

Adil müəllim həmişə biz gənclərə diqqət və qayğı göstərmiş və göstərməkdədir.

Nəsiboğlu *SEVİNDİK*

*19.11.2019*